*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 5, 2025*
*Səh. 506-510*

https://doi.org/10.62837/2025.5.506

**NƏRMIN TƏRLAN QIZI HƏSƏNOVA**
*AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun elmi işçisi / AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun dissertantı*

# MƏSTAN GÜNƏR YARADICILIĞINDA USUBOĞLU OBRAZI

**Xülasə**

Məstan Günər Azərbaycan poeziyasında silinməz imza sahibi olan xalq şairidir. Mindən çox qoşma müəllifi olan şair yaratdığı bənəzərsiz və təkrarsız bədii örnəkləri ilə azman saz-söz sənətkarıdır. Onun qoşmaları müxtəlif mövzulara həsr olunsa da yaratdığı obrazlar qeyri-adiliyi ilə seçilir. Bu obrazlardan biri də Usuboğlu Məhəmməddir. Məstan Günər şeirlərində bir neçə aşıq obrazını yaratmışdır. Lakin Usuboğlu obrazı Məstan Günər yaradıcılığında ayrıca bir xətt kimi yer alır. Məqalədə XX əsr Azərbaycan-Tovuz aşıqlarından Usuboğlu Məhəmməd obrazının Məstan Günər yaradıcılığında tutduğu mövqe, simvolik folklor obrazının poeziyaya gətirilmə səbəbi, Azərbaycan aşıqlığının ağsaqqal obrazının təcəssüm forması araşdırılmışdır.

**Açar sözlər:** aşıq, saz havası, Usuboğlu, qoşma, poeziya

Məstan Günər Azərbaycan poeziyasının görkəmli simalarından biridir. 1935-ci ildə Tovuz rayonunun Əsrik kəndində dünyaya göz açmışdır. Doğulduğu mühit istər təbiəti ilə, istərsə də insanları ilə onun şair kimi yetişməsində mühüm rol oynamışdır. Məstan Günər azman saz şairi idi. Onun yaratdığı istisanız bütün şeirlər saz üstündə köklənmişdir. Xalq şairi, Dövlət mükafatı laureatı Məstan Günər bütün ruhu ilə saza, sözə, aşıq yaradıcılığına bağlı biri idi. İstedadlı şairin sazda çalıb oxumaq bacarığı da var idi. Bu mənada o yazdığı şeirlərin hansı saz havasına daha uyğun olduğunu da çox yaxşı bilirdi. Yazdığı şeirlərində klassik aşıq şeiri ənənəsindən yaradıcı şəkildə bəhrələnmişdir. Aşıq şeirinə, sənətinə bir könüldən min könülə bağlı olan şair haqqlı olaraq qeyd edir ki, “yaxşı qoşma, gəraylı saza yatmırsa o qoşma, gəraylı deyil” [7]. Ona görə də şairin hər bir şeiri orijinal, bənzərsiz və yeni tərkiblidir. Məstan Günər bir məqaləsində İsmayıl Şıxlı ilə olan xatirələrindən danışarkən daim məsləhətlərindən faydalandığı şairin bir iradını oxucuyla bölüşür: “Əli qələm tutanların hər birində təbiiliyə hörmət, ilkinliyə məhəbbət görməyi İsmayıl müəllim xoşlayırdı. Ondan ötrü yaradıcı şəxsin hər birində qəlbin səsini dinləmək birinci şərt idi. Bir dəfə mən sərbəst şeirə keçmişdim. Mao Tsze-Dun haqqında yazmışdım. İsmayıl müəllimin baxışlarında istehza duydum. Soruşdu:

- Mao Tsze-Dunla harda qurutlu xəngəl yeyibsən?

Kifayət idi. "Özünə qayıt" deyirdi” [2].

Məstan Əliyevin özünə qayıdaraq yazdığı şeirlər dünən də bugün də dillər əzbəridir. Hətta onun şeirlərinin müxtəlif şairlərin adına oxunduğu zamanlarda olmuşdur. Bunun belə ustad sənətkar bu haldan narahat olmamış, söz xalqındır demişdir. Professor Məhərrəm Qasımlı bu halı belə qiymətləndirir ki, “təəssüflər olsun ki, şairin yaradıcılığı ətraflı öyrənilməmiş

və təbliğ edilməmişdir. Bu məsələdə özünün də günahı çoxdur. Daim bəziləri kimi öz təbliğatını təşkil etməkdən qaçmışdır. Belə şeylərə yuxarıdan baxmışdır" [3. s.146].

Məstan Günər yaradıcılığının möhtəşəmliyinin əsas səbəbi yaratdığı poetik nümunələrin, obrazların qeyri-adi olmasında idi. Xalq şairinin istənilən mövzuda- təbiət, məhəbbət, vətənpərvərlik, gözəllik və s. qələmə aldığı poetik örnəklərdə sərgilədiyi yüksək poetik təsəvvür onun istedad səviyyəsinin göstəricisidir. "A saçları yovşan anam // bircə kirpiyini qoyub kənara, tək onun başına dolanmaq olar // söykən son damla qanına // süd biləyin, ağ əllərin ağlasın // birdə bu yerlərə gəlmə deyirdin, yarpaq idim yel ötürüb gəlmişəm // ipək yastıq tək incidir" adamı və s. kimi ifadələr şairin yaradıcılığında qeyri-adiliyi ilə seçilir [4], [5]. Bunun bir neçə səbəbi var. İlk öncə istedadlı şair bu bədii örnəkləri yazıya çevirməmişdən əvvəl bütün hissləri ilə yaşayır, daha sonra şair duyğuları ilə istedadının imkanları birləşir və sözdən zərgər dəqiqliyi ilə istifadə edərək nəticədə poetik silqəti nəzərə çarpan gözəl, bənzərsiz nümunələr yaranır. Məstan poeziyası başdan-başa xalq ruhunun təsirindədir. Sözün əsl mənasında görkəmli şair şeirlərindəki koloritli deyim tərzi, canlı danışıq dinamikası ilə xalq ruhunun ləyaqətli təmsilçisidir. Onun aşıqla, sazla bağlı onlarla bir-birindən gözəl şeirləri var. Usuboğlu obrazı şairin yaradıcılığında ayrıca bir yer tutur. XX əsr Tovuz aşıqlarından olan Usuboğlu Məhəmmədə olan sevgisini şair yaradıcılığında silsilə formasında vermişdir. Belə ki, Usuboğlu Məhəmməd Məstanla eyni kənddən idi. Məstan Əliyev uşaqlıqdan bir neçə aşığın əhatəsində böyüsə də ona aşıqlığın tarixi mahiyyətini öyrədən məhz Usuboğlu olmuşdur. Şairin qoşmalarındakı bu bənzərsizlik, şeirlərindəki dil-üslub xüsusiyyətləri heç şübhəsiz Usuboğlu məktəbinin təsirindəndir. Şairin "Usuboğlu", "İliyana haqqında nəğmə", "Durnaların layla payı", "Bir yaylıq arası gül", "Yaxşı günlər imiş o günlər demə", "Gəldi çöl işindən el sənətkarı" və s. şeirlərinin hər biri Usuboğluna həsr olunsa da bir-birinin təkrarı olmamışdır. O, bu şeirlərində Azərbaycan aşıqlığının ağsaqqal obrazını böyük ustalıqla işləmişdir. Bəzi şeirlərində Usuboğlu sadəcə bir simvolik folklor obrazı kimi, digər şeirlərində isə Dədə Qorqudun müasir obrazı kimi çıxış edir. Yəni yeri gəldiyində el camaatına məsləhət verir, xalqın xeyrində, şərində- istənilən məclisində başda yer alır, dastan dolu sinəsində xalqın keçmişini qoruyaraq sazı, sözü ilə gələcək nəsillərə ənənəni ötürür. Məlumdur ki, XVIII əsrdən etibarən poeziyamızda durnalara müraciət olunan və ya onlardan bəhs edən şeirlər bir növ ənənə halını almışdır. İncə ruhlu şair Məstan Əliyevində yaradıcılığında da Durna mövzusu bir xətt kimi keçir. "Durnaların layla payı" (1976) şeiri ilk baxışda mövcud ənənənin davamı kimi görünə bilir. Lakin elə ilk baxışdan şeirin adını oxuyanda məlum olur ki, burada şair ənənəyə yenilik gətirmişdir. "Xalq yaradıcılığı, milli şeir poetikası ruhuna yaxınlıq, bu böyük sərvətə söykənmək-şairin poeziya yolu bu axardadır. Ancaq məlumdur ki, ənənəyə müraciət həmişə zəruri bir şərti-əlavəni, yeniliyi də mütləq tələb edir, əks halda yamsılamaq təhlükəsinin özünü göstərməsi mümkündür, xüsusilə folklorun cazibəsi o qədər güclüdür və onun zahirən asan görünən poetik sadəliyi elə cəlbedicidir ki, həmin stilizə meyli hiss olunmadan üsluba sirayət edə bilər" [1. 51]. Burada şair həm forma, həm də məzmun baxımından yenilik sərgiləyir. Şeir ilk başdan aşıq poeziyası

*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 5, 2025*
*Səh. 506-510*

klassik ənənəsinə əsaslansa da, burada olan simvolik obrazların funksional estetik yükü geniş mənalandırılmış, emosional-fəlsəfi çalarlar dərinləşdirilmişdir. Könlü Kərəm kimi alışıb-yanan, qolları sazının sarmaşığı olan Usuboğlu obrazını şair yalnızca el aşığı kimi təqdim etmir, milli qəhrəmanlıq təfəkkürünün poetik daşıyıcısı kimi verir. Bülbüllərin susduğu, güllərin yatdığı – təbiətin sükut etdiyi vaxtda Usuboğlu vadiyə enir. Durnaların Qızıl Qayanın daşına dəyəndə anaların gözünün qorunu sıxması, durna qanından aşığın sinəsin qırmızılanması, durna qanadlarının tufanda qərq olan yelkənə bənzədilməsi kimi verilən poetik detallar bir-birini izləyərək yeni məzmun yaradır. Usuboğlu obrazı cismən yerdə olsa da fikri, xəyalı durnaların yanındadır. Usuboğlu burada sıradan bir aşıq olmayıb, xalqın ağrı-acılarını sinəsində daşıyan, elin dərdini özününkü hesab edən, milli kimliyin sütunu olan bir ağsaqqal obrazı kimi çıxış edir.

“Aşıq zilə çəkir hay-harayını
Dolan buludunu sıxır tellərin.
Çalır durnaların layla payını,
Oxuyur vadidə saz sərin-sərin” [4. s.329].

Şairin 1976-cı ildə qələmə aldığı daha bir sazın yuvasından pərvazlanan şeirində yenidən Usuboğlu obrazı ilə rastlaşırıq. “Bir yaylıq arası gül” adlanan bu şeirdə şair aşığı təbiət aşiqi kimi verir. Bir gün aşığın gül-çiçəklə dolu olan həyatinə bir nəfər daş atır, gül-gülə dəyir. Aşıq qəfil baş verən hadisədən təsirlənir. Bədəni yarpaq tək əsir. İstəyir ki nadana özü kimi cavab versin. Burada şair aşığın özü ilə hesabatını verir. Yüksək poetik təqdimat sərgiləyən Məstan Günər Usuboğlunu əsl mənəviyyat rəmzi kimi obrazlaşdırır.

“İstədi dalınca çıxıb deyinsin,
Gördü məzəmmətlə kar aşan deyil.
Ucalıq taxtından nə təhər ensin?
Adına-sanına yaraşan deyil” [4. s.331].

Bu misralar Usuboğlunun daxili bütövlüyünü, əxlaq, mərifət sahibi olduğunu göstərir. Sonda kamil ustad Aşıq Usuboğlu dərs vermək məqsədi ilə daşı əlinə alıb həmin adama aparır. Lakin daşın yanında bir yaylıq arası gül də verən, özündə el kamalı, el səbri daşıyan aşıq ucalıq mərtəbəsinə yüksəlir. Deməli, burada şair vurğunu olduğu Usuboğlu obrazı ilə oxucuya bəşəri dəyərləri, əxlaqı, səbr və kamilliyi aşılayır.

Məstan Günərin 1975-ci ildə yazdığı “İlyana haqqında nəğmə” poeması saz havasına yazılmış ilk poemadır. Bu poemada Usuboğlu obrazı ayrıca bir xətt üzrə işlənmişdir. Poema Moldav elindən çənəsində üç xalı olan qızını axtarmaq üçün Azərbaycana gəlib çıxmış bir qadın-İlyana haqqındadır. İlyana başqa yerdən gəlsə də buraya həmişəlik bağlanır. Elin adət-ənənəsi, kişilərin mərdliyi, qadınların düşüncəli olması onu burada qalmağa vadar edir. Ustad sənətkar gözəl poetik örnəklərlə poemada yüksək sənətkarlıq qabiliyyəti sərgiləməyi bacarmışdır. O, burada həm Azərbaycan xalqının müsbət keyfiyyətlərini sərgiləmiş, başqa xalqın nümayəndəsinə olan hörmətin, sevginin təcəssümünü vermiş, həm də aşıq sənətinin incəliyini göstərmişdir. Belə ki, poemanın hər hissəsi “Bizdə belə saz havası var idi: İlyana” deyə başlayır. Bu havanı Aşıq

Usuboğlu Məhəmməd toyların birində İlyananı görüb çox düşündükdən sonra sazını başqa yönə kökləyib yaradır. Məstan bu poemada bir neçə mətləblərə toxunub. Amma Usuboğlu Məhəmmədin obrazını xüsusi həssaslıqla verilib.

“Bizdə belə saz havası var idi:
İlyana
Usuboğlu hərdən onu çalanda
Qorxurduq ki, sim alışa, əl yana.
Bizdə belə saz havası var idi,
Qız havası, naz havası var idi.
Sazın bu cür az havası var idi” [4. s.342]

Bu hissədə şair Usuboğlunun istedadına işarə edir. Onun yaratdığı bu saz havasının nə qədər güclü olduğuna işarə edir. Aşığın saz çalarkən hiss etdiyi emosiya, keçirdiyi daxili təlatümlər o qədər dərindir ki, dinləyici simin alışmağından, əlin yanmağından qorxur. Məstan Günər bu vasitə ilə Usuboğlunun obrazını göylərə qaldırır, onu sadəcə simvolik folklor obrazı kimi deyil, başqa xalqın nümayəndəsinin dərdinə şərik çıxan el ağsaqqalı olaraq təqdim edir. Aşıq sənətinin milli dəyərlərlə bərabər bəşəri duyğuları da ifadə edə bilən bir qiymətli xəzinə olduğuna işarə edir.

Fikirlərimizin yekunu olaraq deyə bilərik ki, Məstan Günər poeziyası sazla sözün vəhdətindən doğan mükəmməl poetik örnəklər toplusudur. O, poetik dünyasında daim xalq ruhunu, elat həyat tərzini, xalqın tarixi yaddaşını, milli kimliyini özündə yaşadan və əsərlərində əks etdirən sözün həqiqi mənasında xalq şairidir. Yüksək poetik tutum və dərin fəlsəfi ümumiləşdirmə qüdrətindən xəbər verən qoşmalarında yer alan Usuboğlu obrazı isə şairin folklor ənənələrinə bağlılığının əsas göstəricisidir. Məstan Günər bu obraz vasitəsilə aşıq sənətinin həm milli, həm də bəşəri mahiyyətini üzə çıxarır, aşığı sadəcə sənətkar yox, xalqın mənəvi dayağı, yaddaşı və dünəni, bugünü və gələcəyi kimi təqdim edir. Bu baxımdan Usuboğlu obrazı bütöv bir xalqın poetik yaddaşını daşıyan monumental sima, el ağsaqqalı kimi yadda qalır.

**Hasanova Narmin**

**The image of Usuboglu in the work of Mastan Gunar**

**Summary**

Mastan Gunar is a folk poet who has an indelible signature in Azerbaijani poetry. The author of more than a thousand poems, the poet is a great musician with unique and unrepeatable artistic examples. Although his poems are dedicated to various topics, the images he creates are distinguished by their unusualness. One of these images is Usuboglu Muhammad. Mastan Gunar created several ashig images in his poems. However, the image of Usuboglu is a separate line in Mastan Gunar's work. The article examines the position of the image of Usuboglu Muhammad, one of the 20th century Azerbaijani-Tovuz ashigs, in Mastan Gunar's work, the reason for

introducing the symbolic folklore image into poetry, and the embodiment of the elder image of Azerbaijani ashigs.

**Keywords:** ashig, saz melody, Usuboglu, goshma, poetry

**ГАСАНОВА НАРМИН**

**ОБРАЗ УСУБОГЛУ В ТВОРЧЕСТВЕ МАСТАНА ГУНАРА**

**РЕЗЮМЕ**

Мастан Гунар — народный поэт, оставивший неизгладимый след в азербайджанской поэзии. Автор более тысячи стихотворений, поэт — великий музыкант с уникальными и неповторимыми художественными образцами. Хотя его стихотворения посвящены разным темам, созданные им образы отличаются своей необычностью. Одним из таких образов является Усубоглу Мухаммед. Мастан Гунар создал в своих стихотворениях несколько ашугских образов. Однако образ Усубоглу — это отдельная строка в творчестве Мастана Гунара. В статье рассматривается место образа Усубоглу Мухаммеда, одного из азербайджано-товузских ашугов XX века, в творчестве Мастана Гунара, причина введения в поэзию символического фольклорного образа, воплощение образа старшего азербайджанских ашугов.

**Ключевые слова:** ашуг, мелодия саза, Усубоглу, гошма, поэзия

## ƏDƏBİYYAT

1. Hüseynov, A.M. Təsvir bütövlüyü // Məstan deyər, dillərdədir bayatım / A.M.Hüseynov, tərt. ed. Ziraddin Əhmədov, red. Vaqif Yusifli. – Bakı: Elm və təhsil, – 2015. – s.49-79.
2. Məstan Günər. Xalqın yazıçısı - xalq yazıçısı https://goyezen.az/edebiyyat/2853-xalqin-yazicisi-xalq-yazicisi.html
3. Məstan deyər dillərdədir bayatım. tərt. ed. Zirəddin Əhmədov. Bakı: Elm və təhsil, 2015. 317 səh.
4. Məstan Günər. Seçilmiş əsərləri. II cilddə I cild. Bakı, Şərq-Qərb.2016. 440 səh.
5. Məstan Günər. Seçilmiş əsərləri. II cilddə II cild. Bakı, Şərq-Qərb.2016. 432 səh.
6. Vaqif Yusifli . Məstan Günərə son beş sualım. Ədəbiyyat qəzeti, 27.04.2003.

**Rəyçi: fil.f.d., dosent Tinatin Məmmədova**